**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Fakültə: Biznez və Menecment**

**Təsdiq edirəm:**
**"Biznes və logistika" kafedrasının müdiri:**
**dos. Əliyev M.Ə.**
**06 fevral 2025-ci il**

**"Biliklərin idarə edilməsi" fənni üzrə**
**İŞÇİ TƏDRİS PROQRAMI (Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00184
**Fənnin növü:** Seçmə fənn
**Tədris ili:** 2024/2026
**Tədris semestri:** Yaz
**Fakültə:** "Biznes və menecment" fakültəsi
**Qrup:** 546/548
**Tədris yükü:** 45 saat (mühazirə/məşğələ 30 /15)
**Kredit sayı:** 4 (dörd)
**Kafedra:** Biznes və logistika

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** dos. İ.E.İsmayılov
**E-mail ünvanı:** i.ismayilov@unec.edu.az
**İş telefonu:** (012) 440 05 62, ( 012) 441 65 21
**Tələbələr üçün qəbul vaxtları:** çümə günləri, saat 11:00-13:00

## III. Fənnin təsviri

Yaşadığımız informasiya cəmiyyəti elmi -texniki tərəqqi nəticəsində biliklərin fasiləsiz və çox sürətlə əldə edildiyi və paylaşıldığı bir dövr kimi xarakterizə olunur. Dəyişikliklərin və inkişafın başgicəlləndirici sürətlə baş verdiyi bu dövrdə biznes strukturlarının, təşkilatların öz fəaliyyətlərini səmərəli şəkildə həyata keçirmələri üçün biliklərin idarə edilməsi mühüm rol oynayır. Rəqabətin sürətlə artdığı, biznes strukturlarının getdikcə mürəkkəbləşdiyi müasir dövrdə bilik amili digər istehsal amillərindən daha vacib amilə çevrilir. Bu vəziyyət biliyin daha mühüm güc amilinə çevrilməsinə səbəb olur.

Bu baxımdan bililərinrin idarə edilməsi təşkilatların rəqibləri üzərində üstünlük əldə

etmək və saxlamaq məqsədi daşıyan bir çox aspektləri əhatə edir.

"Biliklərin idarə edilməsi" fənni də biliyin texnoloji proseslərə səmərəli tətbiqinin modelə çevrilməsini və təşkilati məqsədlərə uyğun olaraq biliklərin istifadəsi üçün zərurin fəaliyyət planlarının öyrənilməsini əhatə edir. Biliklərin idarə edilməsi müəssisənin bilik informasiya ehtiyatlarının yaradılmasına, toplanmasına, təşkilinə və istifadəsinə və onlara çıxışa kompleks yanaşmanı təmin edən bir fəndir. "Biliklərin idarə edilməsi" fənni öz tədqiqat istiqamətinin öyrənilməsində iqtisadiyyat, psixologiya və informasiya idarəçiliyi kimi bir çox fənlərdən istifadə edir.

Biliklərin idarə edilməsinin bir elmi istiqamət kimi formalaşmasında A. Smit və A.Marşallın klassik təlimlərinin, D.Bell, P.Kats, M.Porat, U.Masuda və başqalarının "postindustrial cəmiyyət"lə bağlı baxılarının, əsası Y.Şumpeter, F.Hayek, F.Maxlup tərəfindən qoyulan informasiya iqtisadiyyatı nəzəriyyəsinin, C.Helbreytin sənaye sistemi nəzəriyyəsinin, Y.Şumpeterin novator sahibkar nəzəriyyəsinin, T.Şults və Q.Bekkerin insan kapitalı nəzəriyyəsinin, M.Spensin siqnallar nəzəriyyəsinin, C.Stiqlerin informasiya axtarışı nəzəriyyəsinin, endogen artım nəzəriyyəsinin yaradıcıları R.E.Lucas, P.Romer, S.Rebelo, R.J.Barro, A.J.Bovlus, C.Robinson, T.Şuller, E.Frenin əsərlərinin, Robert Solounun ekzogen iqtisadi artım modelinin, F.Hayekin "diffuz bilik" nəzəriyyəsiNİN, Con F. Mut tərəfindən yaradılan rasional gözləntilər nəzəriyyəsinin, Herbert Saymonun, Kass Sansteyn, Riçard Talerin və başqalarının davranış iqtisadiyyatının, Con Roberts, P.Druker və başqalarının təşkilat nəzəriyyəsi ilə bağlı fikirlərinin, ictimai hadisələr nəzəriyyəsinin (I. Plenge, T. Katarbinsky), əməyin təşkili və idarəedilməsi (A. Fayol, M. Weber, A. Gastev), bioloji təşkilat nəzəriyyəsi (D. Haldane, İkskühl), ümumi sistem nəzəriyyəsi (L. Von Bartalanffy) və kibernetika (N. Wiener) sahəsindəki elmi tədqiqatların böyük rolu olub.

Biliklərin idarə edilməsinə dair tanınmış elm xadimləri T.Davenport. P. Klahr, P.Drucker, E. Toffler, H. Takeuchi, I. Nonaka, K.-E. Sveibi, R.C.Barquin, A.Bennet, S.G.Remez, S.Bhuşan, C. Saxena, R. Kaplan, D. Norton, E. Brooking, J. Stiglitz, V. Makarov, B. Milner, G. Kleiner, V. Inozemtsev, A.V. Bondar, N.I. Bazylev, A.V. Bileviç, N.İ.Boqdan, V.Şerbin, N.V. Sobolev, M. Barca, M. Geyik, H. Bülbül, F. Özdemirci və C. Aydın və başqalarının əsərləri fənni geniş və keyfiyyətli şəkildə tədrisini həyata keçirməyə imkan verir.

## IV. Fənnin məqsədi və vəzifələri

Kursun məqsədi tələbələri biliklərin idarə edilməsinin konseptual əsasları ilə tanış etməkdir. Biliklərin idarə edilməsi sahəsində tələbələrin dünyagörüşünün artırılması, beynəlxalq standartlara əsaslanan biliklərin idarə edilməsi texnologiyalarının öyrədilməsi, təşkilatlarda biliklərin idarə edilməsi sistemlərinin işlənib hazırlanması ilə bağlı idarəetmə bacarıqlarının formalaşdırılması, təşkilati mədəniyyətin tərbiyəsi, bilik auditinin mənimsənilməsi kimi məsələlər də fənnin məqsədlərinə daxildir.

Bu fənni öyrənmək prosesində tələbə aşağıdakı kompetensiyaları mənimsəyir: müstəqil şəkildə yeni biliklər əldə etmək və istifadə etmək bacarığı, innovativ təşkilatlarda sistemli biliklərin idarə edilməsini və biliklərin idarə edilməsi sisteminin işlənib hazırlanmasını təmin edən hərtərəfli metodologiyanı nümayiş etdirmək və tətbiq etmək bacarığını əldə edir.

Kursun məqsədi tələbələrdə bilik iqtisadiyyatı çərçivəsində təşkilatların rəqabəqabiliyyətliliyini təyin edən yeni biliklərin yaradılması. Saxlanılması, ötürülməsi və onun idarəolunma imkanları haqqında bütöv bir baxış formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- biliklərin idarə edilməsi sahəsində sistem idarəçiliyi təfəkkürünün əsas qanun və anlayışlarının öyrədilməsi;

• müasir biliyin idarə olunması metodologiyasının qurulması prinsiplərinin öyrədilməsi;
• innovativ məhsulların hazırlanmasında biliklərin idarə edilməsinə yaradıcı yanaşmaların həyata keçirilməsi bacarığının formalaşdırılması;
• biliklərin idarə edilməsi sisteminin layihəsinin təşəbbüskarı və planlaşdırılması zamanı əsas sənədlərin yaradılması bacarıqlarının formalaşdırılması;
• müəssisədə biliklərin idarə edilməsi vərdişlərinin formalaşdırılması.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- biliklərin idarə edilməsinə dair nəzəriyyələrin mahiyyətini, bilik anlayışını;
- biliklərin idarə edilməsi fəniinin predmetin, məzmununu, və vəzifələrini;
- təşkilatlarda biliklərin idarə edilməsinin mahiyyətini, məqsədi və əsas istiqamətlərini;
- təşkilatlarda bilklərin identifikasiyasi və toplanmasını;
- təşkilatlarda bilik mübadiləsi sistemi və biliklərin idarə edilməsi modellərini;
- təşkilatlarda biliklərin idarə edilməsi sistemi və bilik mühəndisliyini;
- təşkilatlarda iliklərin idarə edilməsi texnologiyalarını;
- təşkilatlarda yeni növ təşkilatı strukturların yaradılması və təşkilatda biliyin transformasiyasını;
- əmək bazarının tələblərinə uyğun insan kapitalının və biliklərin formalaşdırılmasını;
- təşkilatlarda yeni biliklərin əldə edilməsi və generasiyasını;
- intelektual kapital konsepsiyasını, sənayə xüsusiyyətli biliklərin idarə edilməsini;
- təşkilatda istedadlarin idarə edilməsi, onların qorunması və biliklərinin inkişaf etdirilməsini;
- təşkilatda istedadlarin və ixtisaslı kadrların idarə edilməsi istiqaməti kimi, işçilərin peşəkar bacarıqlarının artırımasını;
- təşkilatlarda biliklərin auditi, onun əhəmiyyəti və növlərini;
- iqtisadiyyatin rəqəmsallaşması şəraitində bilikləri idarə edilməsini

**Bacarmalıdırlar**:

Kursun tədrisi tələbələrdə aşağdakı sahələrdə bilik, qabiliyyət və bacarıqlara sahib olmaq imkanı yarаır:

-Analitik –
a) Öz gizli biliklərini yoldaşlarına da ötürmək və rəsmiləşdirmək qabiliyyəti kimi komandada işləmək bacarığı;
b) Bilik strategiyaları və biliklərin idarə olunması strategiyalarını təhlil etmək bacarıqları
¬-Kommunikativ –
a) Bilikləri təqdi etmək və arqumenləşdirmək bacarıqları;
b) Şirkətin intellektual kapitalının idarə olunması üçün təhlil etmək və tövsiyələr hazırlamaq bacarığı.
-İdarəetmə -
a) Şəxsi və təşkilati səviyyədə öyrənmə və özünü inkişaf etdirməyin vacibliyini dərk etmək;
b) Təşkilati biliklərin yaradılması üçün motivasiya sisteminin qurulması üzrə bilik və bacarıqlar.

**<u>VII. Prerekvizitlər</u>**

Yoxdur.

**<u>VIII. Fənnin mühazirə mövzuları</u>**

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzu üzrə mühazirələrin hər birinə 2 saat olmaqla 3 saat, seminar məşğələrinə isə ümumilikdə 15 saat vaxt ayrılır.

1. Biliklərə əsalanan iqtisadiyyat, onun formalaşması, xüsusiyyətləri, biliklərə resurs kimi retrosspektiv və perspektiv baxış;
2. Biliyin bir resurs kimi əsas xüsusiyyətləri, təşkilatlar üçün dəyəri, biliklərin təsnifatı və əsas kateqoriyaları;
3. Biliklərin idarə edilməsinin nəzəri əsasları, fənnin məqsədi, vəzifələri, prinsipləri və əsas istiqamətləri;
4. Təşkilatlarda biliklərin idarə edilməsi prosesi, bilklərin identifikasiyası və bilik bazası;
5. Təşkilatlarda biliklərin idarə edilməsi sistemi, təşkilati formaları və bilik mühəndisliyi
6. Bilik mübadiləsi sistemi və təşkilatlarda biliklərin idarə edilməsi modelləri;
7. Təşkilatlarda biliklərin idarə edilməsi texnologiyaları, Korporativ Bilik Portalı;
8. Təşkilatlarda biliklərin idarə edilməsi strategiyaları və biliklərin idarə edilməsinə yanaşmalar;
9. Əmək bazarının tələblərinə uyğun insan kapitalının və biliklərin formalaşdırılması;
10. Təşkilatlarda yeni biliklərin əldə edilməsi və generasiyası;
11. İntelektual kapital konsepsiyası: bilik iqtisadi aktiv kimi, intelektual kapitalın ölçülməsi və idarə edilməsi;
12. Təşkilatda istedadlarin idarə edilməsi, onların qorunması və biliklərinin inkişaf etdirilməsi;
13. Varislik planlaşdırılması təşkilatda istedadlarin və ixtisaslı kadrların idarə edilməsi istiqaməti kimi, işçilərin peşəkar bacarıqlarının artırıması;
14. Təşkilati biliklərin audit və qorunması, bilik xəritəsi;
15. İqtisadiyyatin rəqəmsallaşması şəraitində bilikləri idarə edilməsi.

**<u>X. Fənnin mühazirə mətnləri</u>**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

**<u>III. Tələb olunan dərsliklər və dərs vəsaitləri</u>**

**Əsas ədəbiyyat:**


1. Управление знаниями. Теория и практика : учебник для бакалавриата и магистратуры / под ред. А. И. Уринцова. — М. : Издательство Юрайт, 2014. — 255 с.
2. Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом" . Екатеринбург. Издательство Уральского Университета -2015, 140 с.
3. Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания: Учебное пособие. – Ульяновск: УлГУ, 2016. - 223 с.
4. Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik, 01.09.2014, 242 s.
5. Дресвянников В. А. Управление знаниями организации : учеб. пособие.М.: кнорус, 2012. 344 с..
6. Н. Р. Кельчевская, И. С. Пелымская, И. М. Черненко. Экономика знаний : учебное пособие / Екатеринбург : Изд-во Урал. ун-та, 2022. 192 с.


**Əlavə ədəbiyyat:**


1. Şahbazov K.A., H.S. Həsənov, M.H. Məmmədov, Menecment 2007
2. Atakişiyev M.C. İnnovasiya menecmenti, Bakı 2004
3. Bilgi Yönetimi: Bilgi Türeticileri, Büyük Veri, İnovasyon ve Kurumsal Zeka, Editör S.Gülseçen, Papatya Yayınevi (2016):
4. Белл Д. Грядущее постиндустриальное общество. опыт социального прогнозирования / пер. с англ. ; ред. и вступ. ст. в. л. иноземцев. М. : Academia, 1999. 956 с.
5. В.В. Ефимов, Управление знаниями: учебное пособие. Ульяновск: У лГТУ, 2005.-111с.
6. Макаров В. Л. Контуры экономики знаний // Экономист. 2003. № 3. с. 3–15
7. Попов Е. В., Власов М. В. институциональное проектирование генерации знаний. екатеринбург : ин-т экономики уро ран, 2013. 258 с
8. Мильнер, Б. 3. Управление знаниями /Б. 3. Мильнер. - М.: ИНФРА-М, 2003. 178с.
9..Шумпетер, И. Теория экономического развития /И. Шумпетер. - М.: ЗАО «Олимп-бизнес», 1982. - 354 с
10. Друкер П.Ф. Задачи менеджмента в XXI веке. Пер. с англ. — М.: Изд. Дом «Вильямс», 2000..
11. Кезин, А. В. Менеджмент: методологическая культура / А. В. Кезин.- М.:Гардарики, 2001.
12. Нонака И., Такеучи Х. компания — создатель знания. зарождение и раз- витие инноваций в японских фирмах. М. : зао «олимп–бизнес», 2003. 384 с.
13. Махлуп, Ф. Производство и распространение знаний в США / Ф. Махлуп. - М.: Прогресс, 1966.
14. Кларк Э. Управление знаниями: польза от применения опыта в области качества // Стандарты и качество. - 2001. - №11. - С.116-120.
15.Румизен, М. К. Управление знаниями /М. К. Румизен. - М.: ООО «Издатель ство Астрель», 2004. - 318 с.
16. Бyкович.У. Управление знаниями: руководство к действию /У.Букович, Р. Уилльямс. - М.: ИНФРА-М, 2002. - 304 с.
17. Катькало В.С. Эволюция теории стратегического управления / Высшая школа

менеджмента СПбГУ. — 2-изд. — СПб.: Изд-во «Высшая школа менеджмента»; Издат. дом С.-Петерб. гос.ун-та, 2008. — 548 с.
18. Барышева А.В. (2009). Экономика знаний — что это значит / Центр общественных экспертиз. Поиск: www. nest-expert.ru.
19. Сенге П. Пятая дисциплина: Искусство и практика самообучающейся организации / Пер. с англ. — М.: Олимп- Бизнес, 1999.
20. Маркова В,Д., Кузнецова С.А. Стратегический менеджмент в экономике знаний. // Вестник Новосиб. госуд. ун-та. Сер.: Социально-экономические науки. — 2015. — Т.15. — Вып.2. — С. 72–86.
21. Гапоненко А. Л. управление знаниями. М. : иПк госслужбы, 2001. 52 с.
22. Иноземцев В. современное постиндустриальное общество: природа, противоречия, перспективы [Электронный ресурс]. URL: http://www.lib.ru/ECONOMY/inozemcew.txt
23. Попов Е. В., Власов М. В. институты миниэкономики знаний. М.: Academia. 2009. 288 с.
24. Stewart, T. Intellectual Capital. The New Wealth of Organization. - N.Y.; L.1997.
25. .Wiig, K. Knowledge Management Foundation. - Schema Press, 1993.
26. .Drucker P. F. The new Productivity Challenge // Harvard Business Review. 1991. November–December. p. 69–79.
27. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.
28. Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,
29. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.
30. .Barro R.J. (1993) Human Capital and Eco- nomic Growth// 199-216.
31. Becker G.S. (1964) Human Capital. N.Y.: Columbia University Press, 1964.
32. Bowlus A. J. Robinson C. (2008) HumanCapital Prices, Productivity and Growth // Centre and the Canadian Social Sciences and Huma nities Research Council. July 2008 55 p.
33. Клейнер Г.Б. Интеллектуальная экономика нового века: Экономика постзнаний // Экономическое возрождение России, 2020, №1(63), с. 35-42.
34. Джигеров З.А., Дубовик М.В. Новые тренды в интеллектуальной экономике // Экономика устойчивого развития, 2013, №13, с.82-87.
35. Некрасова, Н. А. Управление талантами/Н. А.Некрасова//Управление человеческим потенциалом. – 2011. − № 4(28). – С. 326-332.
36 . Э.Н. Майклз, Э.С. Хэндфилд-Джонс, Э.А. Экселрод. Война за таланты / – М.: Манн, Иванов и Фербер, 2012.
37. Карташов С. А., Одегов Ю. Г., Шаталов Д. В. Управление талантами как HR-технология // Вестн. Ом. ун-та. Серия «Экономика». – 2013. – № 1. – С. 85–94.
38. Никулин Л. Ф., Симагина С. Г. Войны за таланты и креатив: реальность современного менеджмента. – М. : ЮНИТИ : Закон и право, 2013. – 182 с.
39. Робертсон А., Эбби Г. Управление талантами. – Днепропетровск : Баланс-клуб,2004. – 176 с.
40. Антонова О. Фокус на талант // Персонал Микс. – 2007. – № 10. – URL : http://www.coleman.ru/nashe-mnenie/personnel-management.

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

**FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Biliklərə əsalanan iqtisadiyyat, onun formalaşması, xüsusiyyətləri, biliklərə resurs kimi retrosspektiv və perspektiv baxış | Bilik iqtisadiyyatı, onun mahiyyəti və yaranması. Bilik iqtisadiyyatının formalaşmasına təsir edən amillər, formalaşmasının xarakterik xüsusiyyətləri. Biliyin iqtisadiyyatda rolunu artıran amillər, bilik iqtisadiyyatının infrastrukturunun əsas komponentləri. Biliklərə resurs kimi retrosspektiv baxış, insan kapitalı nəzəriyyəsi.. Solou-Svon modeli, Hayek8n “diffuz bilik” nəzəriyyəsi, adaptiv və rasional gözləntilər nəzəriyyələri.. Biliklərə resurs kimi perspektiv baxış, davranış iqtisadiyyatı, neyroiqtisadiyyat | 1. Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:<br>2. Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi..<br>3. Дресвянников В. А. Управление знаниями организации . 4.Н. Р. Кельчевская, И. С. Пелымская, И. М. Черненко ; под общ. ред. Н. Р. Кельчевской; Экономика знаний .<br>4. Иноземцев В. современное постиндустриальное общество: природа, противоречия, перспективы |
| 2 | Biliyin bir resurs kimi əsas xüsusiyyətləri, təşkilatlar üçün dəyəri, biliklərin təsnifatı və əsas kateqoriyaları | Bilik, bir resurs kimi biliyin əsas xüsusiyyətləri, informasiyadan fərqi. Biliklərin formalaşması istiqamətləri və təsnifatı. Biliklərin 4 əsas kateqoriyası və onların alt qrupları. Təşkilat üçün biliyin dəyəri, iqtisadi resurs kimi biliyin əsas xüsusiyyətləri və biliyin strukturlaşdırılması. Biliklərin öyrənilməsi və nümayiş etdirilməsi istiqamətləri, biliyin ifadə edilməsi üsulları Təşkilatlarda biliklərin əldə olunması mənbələri, biliklərin keyfiyyəti | 1. Управление знаниями. Теория и практика : учебник для бакалавриата и магистратуры,<br>2. Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом" .<br>3. Мильнер Б.З. Управление знаниями: Эволюция и революция в Организации.<br>4. Bilgi Yönetimi: Bilgi Türeticileri, Büyük Veri, İnovasyon ve Kurumsal Zeka, Editör S.Gülseçen,: Катькало В.С. Эволюция теории стратегического управления . |

| | | | |
|---|---|---|---|
| **3** | Biliklərin idarə edilməsinin nəzəri əsasları, fənnin məqsədi, vəzifələri, prinsipləri və əsas istiqamətləri | Biliiklərin idarə edilməsinin mahiyyəti, məzmununu və nəzəri əsaslarının yaranması. Biliklərin idarə edilməsi vəzifələri və səviyyələri.Biliklərin idarə edilməsi ilə bağlı metodoloji yanaşmalar, biliklərin idarə edilməsi prinsipləri.Biliklərin idarə edilməsinini üstünlükləri və başlıca sistiqamətləri. Təşkilatlarda biliklərin idarə edilməsi proseslərinə nəzarət | 1. Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом"<br>2. Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:,<br>3. .Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik,<br>4. Адлер Ю., Черных Е. Знаниеи информация — это не одно и то же // информационное общество.,<br>5.Мариничева М. Управление знаниями на 100 %. |
| **4** | Təşkilatlarda biliklərin idarə edilməsi prosesi, bilklərin identifikasiyası və bilik bazası | Təşkilatlarda biliklərin idarə edilməsi prosesinin mahiyyəti, istiqamətləri..Təşkilatlarda biliklərin idarə edilməsinin məqsədi və vəzifələri. Təşkilatlarda biliklərin idarə olunmasına yanaşmalar və biliyin idarə olunması strategiyaları. Biliklərin idarə edilməsi prosesinin məzmunundakı komponentlər və bu prosein həyata keçirilməsi prinsipləri. Biliyin axtarışı və identifikasiyası, biliklərə haqda məlumatların əldə edilməs.Bilik Bazası, onun strukturu, qurulmazdan öncə lazım olan bilik tipləri. Təşkilatlarda biliklərdən istifadə ilə bağlı problemlər, "öyrənən təşkilat" yeni təşkilati struktur kimi. Təhsil və biliklərin toplanması, öyrənmə metodları, "öyrənən təşkilat"ın xüsusiyyətləri | 1. Управление знаниями. Теория и практика : учебник для бакалавриата и магистратуры / под ред. А. И. Уринцова.<br>2. Паникарова. С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом".<br>3. Bilgi Yönetimi: Bilgi Türeticileri, Büyük Veri, İnovasyon ve Kurumsal Zeka, Editör S.Gülseçen,<br>4. В.В. Ефимов, Управление знаниями: учебное пособие<br>5..Стоунхаус Дж. Управление организационным знанием |

| | | | |
|---|---|---|---|
| **5.** | Təşkilatlarda biliklərin idarə edilməsi sistemi, təşkilati formaları və bilik mühəndisliyi | Təşkilatlarda biliklərin idarə edilməsi sistemlərinin mahiyyəti və əsas funksiyakları. Təşkilatlarda biliklərin idarə edilməsi sistemlərinin inkişaf mərhələləri. Təşkilatlarda biliklərin idarə edilməsi sisteminin qurulması mexanizmləri Bilik mühəndisliyi, elmi bilik kriterisi və dərketmənin strukturu. Biliklərin emalı və təkrar emalı. Biliklərin idarə olunmasının təşkilati formaları. Təşkilatın biliklərin idarə edilməsinin strukturu | 1. Управление знаниями. Теория и практика : учебник для бакалавриата и магистратуры / под ред. А. И. Уринцова.<br>2. Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом" .<br>3. Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:<br>4. Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi.<br>5. Абдикеев, Н. М. Управление знаниями корпорации и реинжиниринг бизнеса. |
| **6** | Bilik mübadiləsi sistemi və təşkilatlarda biliklərin idarə edilməsi modelləri | Biliklərin mübadiləsinin mahiyyəti və əhəmiyyəti.Biliklərin təkmilləşdirilməsi və ötürülməsi, buna personalın motivasiyasının təsiri. Biliklərin mübadiləsi proseslərinə dəstək tədbirləri, məntiqi-nəzəri və intuitiv-praktik bilik mübadiləsi. Təşkilat daxilində bilik mübadiləsinin genişləndirilməsi yolları, biliklərin ötürülməsinin növləri və maeələr. Bilik mübadiləsinə təşkilat və işçilər arasında qarşılıqlı edimadın təsiri. Biliklərin idarə edilməsi ilə bağlı İ.Nonak, H.Takeuçi modeli. Biliklərin idarə edilməsi ilə bağlı H. Krmar və J. Rechoiser modeli. | 1. Нонака И., Такеучи Х. компания — создатель знания. зарождение и развитие инноваций в японских фирмах.<br>2. Управление знаниями. Теория и практика.<br>3. Гапоненко А. Л. Управление знаниями.<br>4. Дресвянников В. А. Управление знаниями организации<br>5. Махлуп Ф. Производство и распространение знаний в США |

| | | | |
|---|---|---|---|
| **7** | Təşkilatlarda biliklərin idarə edilməsi texnologiyaları, Korporativ Bilik Portalı | Biliklərin idarə edilməsi ilə bağlı informasiya texnologiyalarından istifadənin vəzifələri,. .Biliklərin idarə edilməsinin kommunikativ texnologiyalar, korporativ PR. İnvestor əlaqələri, media əlaqələri, inteqrasiya olunmuş marketinq kommunikasiyalarının biliklərin idarə edilməsində rolu. Biliklərin idarə edilməsində marketinq texnologiyaları. Reputasiyasının idarə edilməsi biliklərin idarə edilməsi texnologiyası kimi. Korporativ Bilik Portalı, onun xusiyyətləri, Korporotiv Yaddaş | 1. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>2. Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>4. Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания<br>5. Bilgi Yönetimi: Bilgi Türeticileri, Büyük Veri, İnovasyon ve Kurumsal Zeka, Editör S.Gülseçen, Papatya Yayınevi (2016): |
| **8** | Təşkilatlarda biliklərin idarə edilməsi strategiyaları və biliklərin idarə edilməsinə yanaşmalar | Biliklərin idarə edilməsi strategiyaları. Biliklərin idarə edilməsinə səriştəyə əsaslanan yanaşma, təşkilati mədəniyyət, bilik mədəniyyəti. Təşkilati təhsil, onun növləri, "öyrənən təşkilat" və onun xüsusiyyətləri. Təşkilatlarda əsas təlim metodları, onun əhəmiyyəti, yaşlı insanların təhsili və mütərəqqi təşkilati strukturun formalaşdırılması. Biliklərin idarə edilməsinə institusional yanaşma..Sosial-iqtisadi institutların genezisi və təşkilatlarda biliyin idarə edilməsinin əsas üsulları. Biliklərin idarə edilməsi institutlarının tətbiqi mərhələləri | 1.Kleiner G. B. İnstitusional sistemlərin təkamülü. Moskva, " Elm" nəş., 2004.240 s.<br>ɔrt D. Qurumlar, institusional dəyişikliklər və iqtisadiyyatın fəaliyyəti. Moskva. "İqtisadi kitab" nəş.,, 1997. 180 s.<br>nge P. Beşinci intizam. özünü öyrənən təşkilatın sənəti və təcrübəsi. Moskva, "Olymp-Business" nəş., 2003. 408 s.<br>Sukharev O. S. İnstitusional nəzəriyyə və iqtisadi siyasət: makroiqtisadiyyatda transmissiya mexanizminin yeni nəzəriyyəsinə doğru. Moskva, "İqtisadiyyat" nəşriyyatı, 2007. 516 s.<br>ɔrporasiyalarda biliklərin idarə edilməsi: dərslik. B.Milner, Z.Rumyantsev, V. Smirnova və başqaları. M: "İş" nəş., 2006. 304 s. |

| | | | |
|---|---|---|---|
| **9** | Əmək bazarının tələblərinə uyğun insan kapitalının və biliklərin formalaş-dırılması | İnsan bilik və bacarıqlarının kapitallaşması və insan kapitalı bazarının formalaşması şərtləri. İnsan kapitalı bazarının məzmunu və strukturu. İnsan kapitalının səmərəli təchizatı üçün institusional əsaslar.Əmək bazarında insan kapitalının anlayışı və mahiyyəti. İnsan Kapitalına İnvestisiya və Əmək haqqının Fərqlənməsini izah edən Əsas Modellər. İnsan kapitalının formalaşması ilə bağlı əmək bazarında struktur dəyişiklikləri. İnsan potensialının kapitallaşması. İnsan potensialının insan kapitalına çevrilməsi mərhələləri. İnsan kapitalının iqtisadi atrıma təsiri. İnsan kapitalının əmək bazarındakı dəyərinə görə yanaşması. | 1. Н. Р. Кельчевская, И. С. Пелымская, И. М. Черненко. Экономика знаний.<br>2. Becker G.S. (1964) Human Capital. N.Y.: Columbia University Press, 1964.<br>3. 3. Bowlus A. J. Robinson C. (2008) HumanCapital Prices, Productivity and Growth // Centre and the Canadian Social Sciences and Huma nities Research Council. July 2008 55 p.<br>4. Демченко.Т.А.Проблемы исследования человеческого капитала.<br>5. Человеческий капитал в условиях современной трансформационной экономики : Сб. науч. тр. / Редкол.: М.М. Критский и др. СПб. : СПбГИЭУ, 2000. - 164 с. |
| **10** | Təşkilatlarda yeni biliklərin əldə edilməsi və generasiyası | İdeyaları reallaşdırmaq azadlığı. Yeni biliklərin mənimsənilməsi. Yeni biliklərin axtarışı üsulları. Yaradıcılıq qarşısında şəxsi və təşkilati maneələr. Komandanın qurulması<br>Komanda hazırlığı. Beyin fırtınası proseduru (texnologiyası). Beyin fırtınası texnologiyasına əsaslanan metodlar | 1.Н. Р. Кельчевская, И. С. Пелымская, И. М. Черненко. Экономика знаний.<br>.2.Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом"<br>3.Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:,<br>4..Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik, |

| | | | |
|---|---|---|---|
| **11** | İntelektual kapital konsepsiyasi: bilik iqtisadi aktiv kimi, intelektual kapitalın ölçülməsi və idarə edilməsi | Makro və mikro iqtisadi səviyyələrdə intellektual kapitalın mahiyyəti və əhəmiyyəti. İntellektual kapital və dəyərin yaradılması prosesi. İntellektual kapitalın quruluşu: statik və dinamik formada. Təşkilatlarda intellektual kapitalın idarə edilməsi prosesi .Ffirmanın biliklərin əldə edilməsi strategiyaları. İntellektual iqtisadiyyatın əsas baza xüsusiyyətləri və prinsipləri İnformasiya, bilik və postbilik iqtisadiyyatlarının xüsusiyyətləri və nəzəriyyələri. Postbilik iqtisadiyyatında intellektuallıq amili.Bilik və postbilik iqtisadiyyatlarının fərqli xüsusiyyətləri və formalaşma mərhələləri. İntellektual iqtisadiyyatın formalaşmasında institutsional amillər | 1.Клейнер Г.Б. Интеллектуальная экономика нового века: Экономика постзнаний // Экономическое возрождение России, 2020, №1(63), с. 35-42.<br>2..Брукинг Э. Управление интеллектуальным капиталом: проблемы и реше ния. М. ; Питер, 2006. 297 с.<br>3. Гапоненко А. Л., Орлова Т. М. Управление Знаниями. М. : Эксмо, 2008.52 с.<br>4.. В.В. Ефимов, Управление знаниями:<br>5. Стюарт Т. А. Интеллектуальный капитал. новый источник богатства организации / пер. с англ. М. : Поколение, 2007. 368 с. |
| **12** | Təşkilatda istedadlarin idarə edilməsi, onların qorunması və biliklərinin inkişaf etdirilməsi | “İstedadlı əməkdaş” anlayışı və onun xüsusiyyətləri İstedadın müəyyənləşdirilməsi. İstedadların idarə edilməsi konsepsiyası. “İstedadların idarə edilməsi” kadrların idarə olunması istiqaməti kimi. İstedadların idarə edilməsi təcrübələri. Şirkətlərin istedadları udma qabiliyyəti konsepsiyası. Bacarıqlı işçilərin cəlb olunması yolları. İstedadlı işçilərin saxlanılması istiqamətləri. İstedadlı işçilərin inkişafı. İstedadların idarə edilməsinə eksklüziv yanaşma ilə inklüziv yanaşma . Xarici şirkətlərdə istedadların idarə olunması sisteminin qurulması. | 1.. Некрасова, Н. А. Управление талантами. – 2011. – № 4(28). – С. 326-332.<br>2. Э.Н. Майклз, Э.С. Хэндфилд-Джонс, Э.А. Экселрод. Война за таланты / – М.: Манн, Иванов и Фербер, 2012.<br>43Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом"<br>4.Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:,<br>5..Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik, |

| | | | |
|---|---|---|---|
| **13** | Varislik planlaşdırılması təşkilatda istedadlarin və ixtisaslı kadrların idarə edilməsi istiqaməti kimi, işçilərin peşəkar bacarıqlarının artırıması | "Kadrlar ehtiyatı" anlayışı və onun xüsusiyyətləri. Şirkətə kadr ehtiyatının yaradılmasınıın qazandırdığı üstünlükləri. Xarici və daxili kadr ehtiyatı. Rəhbər vəzifələr üçün kadr ehtiyatının mənbələri. Ehtiyatda olan kadrların təlimi və inkişafı metodları.Karyera planlaşdırılması və onun məqsədlərii.Təşkilatda varisliyin planlaşdırılması prosesinin xüsusiyyətləri. Varisliyin planlaşdırılmasının texnologiyasıı. Xarici şirkətlərdə varisliyin planlaşdırılması . | 1.. Некрасова, Н. А. Управление талантами. – 2011. – № 4(28). – С. 326-332.<br>2. Э.Н. Майклз, Э.С. Хэндфилд-Джонс, Э.А. Экселрод. Война за таланты / – М.: Манн, Иванов и Фербер, 2012.<br>43Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом"<br>4.Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:,<br>5..Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik, |
| 14 | Təşkilati biliklərin audit və qorunması, bilik xəritəsi | Bilik auditi anlayışının mahiyyəti. Bilik auditini həyata keçirərmək üçün vacin amillər. Təşkilat üçün bilik auditinin əhəmiyyəti. Şirkətin bilik auditini həyata keçirməsinə səbəb olan amillər. Bilik auditi növləri. Biliklərin idarə edilməsinə Amerika yanaşmasının mahiyyəti Biliklərin idarə olunmasına Avropa yanaşmasının xüsusiyyətlərii. Biliklərin idarə olunmasına Yapon yanaşması. Müasiri şirkətlərdə biliklərin idarə edilməsinin modelləri və təcrübəsi. | 1. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014<br>2.Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>3.Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010, |

| | | | |
|---|---|---|---|
| **15** | İqtisadiyyatin rəqəmsallaş-ması şəraitində bilikləri idarə edilməsi. | Rəqəmsal iqtisadiyyat və Bilik iqtisadiyyatı Rəqəmsallaşma texnoloji inkişafın yeni mərhələsi kimi. "Sənaye 4.0" konsepsiyası çərçivəsində tətbiq olunan rəqəmsallaşma. Rəqəmsallaşma kontekstində əmək bazarında insan kapitalı. Təşkilatda rəqəmsallaşmanın strateji idarə olunması. Rəqəmsal iqtisadiyyat kontekstində biliyin idarə edilməsinin iki modelinin təhlili | 1.Н. Р. Кельчевская, И. С. Пелымская, И. М. Черненко. Экономика знаний. .2.Паникарова.С.В.,М. В. Власов- "Управление знаниями и интеллектуальным капиталом" 3. Мильнер Б.З. Управление знаниями: Эволюция и революция в Организации. — 4..Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik, |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə

Semestr ərzində tələbələrə sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst iş çap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir. Sərbəst işlərin qiymətləndirilməsi onların keyfiyyətindən sayından asılı olaraq həyata keçirilə bilər. 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması yaxud referatın işlənilməsi tələb oluna bilər. Belə araşdırmalar zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında,

qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0- dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

**XV. Dərsə davamiyyət**

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti balla qiymətləndirilmir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

**XVI. Aralıq qiymətləndirmə**

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 20 ballıq sistemlə 0-20 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 1 dəfə aralıq imtahanlar keçirilməklə qiymətləndirilir. Aralıq imtahanlar tədrisin yarısı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Aralıq imtahanlar yazılı və test üsulu formasında keçirilə bilər.

Aralıq imtahada tələbənin bilikləri 30 ballıq sistem üzrə 0-30 bal arasında (maksimum 30 bal) qiymətləndirilir. Tələbə aralıq imtahanda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur.

**XVII. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVIII. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |

| | | |
|---|---|---|
| Yekun imtahan | 50 bal | 50 % |
| **Semestr nəticəsinə görə** | **100 bal** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** ____________________ **Dos. İsmayıl Elman oğlu İsmayılov**